

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

4 iyul 2023-cü il
çərşənbə axşamı

1933-cü ildən çıxır
№ 25 (3639)


# CÜMHURİYYƏT YAŞIDI, İLLƏRİN YADİGARI



Dövlətimizin və dövlətçiliyimizin əsas sütunlarından biri olan Azərbaycan Polisinin yaranmasından 105 il ötür. Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıd olan polis onun süqutunadək tam formalaşdırılıb başa çatdırılmasa da, dövlətin milli maraqlarını qorumaqla yanaşı, asayişi bərpa etmək uğrunda bir sıra uğurlara imza atmaqla adını tariximizin şanlı səhifələrinə yazdırdı.

Müstəqilliyimizi yenidən bərpa etdiyimiz ilk illərdə də bu qurum çox böyük çətinliklərlə üzləşdi. Hədəflərə çatmaq üçün xalqın inamı və etibarı bütün əngəlləri aşmağa kömək etdi. Ərazi bütövlüyümüzə təcavüz edən düşmənin ilk cəhdlərinin qarşısı da məhz polis tərəfindən alındı. Əli silah tutan oğulların, könüllülərin hazırlanması, təlimlərə cəlb edilməsi, nizami ordunun formalaşması yolunda addımların atılması polisin həmin dövrdə vəzifələrindən birinə çevrildi.

## Azərbaycan Polisinin yaranmasından 105 il ötür







Yeri gəlmişkən, ölkə daxilində hakimiyyət uğrunda gedən mübarizənin yaratdığı vətəndaş qarşıdurması və xarici qüvvələrin dəstəklədiyi Ermənistanın Azərbaycana qarşı təcavüzü müstəqilliyin yenidən itirilməsi təhlükəsini qaçılmaz edirdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər 1993-cü ilin 15 iyunundan sonra xaosdan qurtuluşa keçidin əsasını qoydu. Ölkənin ictimai-siyasi həyatında və kriminogen durumda köklü müsbət dəyişikliklər baş verdi. İntensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılması, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi.

Ölkənin hüquq sistemində boşluqların olması cinayətkarlıqla qətiyyətli mübarizəyə, asayişin təmininə çox ciddi təsir göstərirdi.

1994-cü il avqust ayının 9-u ulu öndər Heydər Əliyev tərəfindən "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanın imzalanması gələcək fəaliyyətin məhək daşına çevrildi.

1999-cu ildə "Polis haqqında" Qanunun qəbulu, 30 iyun 2001-ci ildə "Daxili İşlər Nazirliyinin Əsasnaməsi və strukturu"nun təsdiq edilməsi, 2004-cü il iyunun 30-da qəbul olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" Dövlət Proqramı və digər bu kimi hüquqi və tarixi sənədlər hüquq mühafizə orqanları sistemində mühüm dönüş yaratdı.

Bu gün Azərbaycan Daxili İşlər Nazirliyi dövlətin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq dünyanın, xüsusilə də Avropanın beynəlxalq polis strukturlarına tam inteqrasiya olunmaq yolunda inamla irəliləyir. İkitərəfli və çoxtərəfli əməkdaşlığın qurulması əldə olunan nailiyyətləri daha da möhkəmləndirir. İndi Azərbaycan Polisi BMT, NATO, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, Beynəlxalq Miqrasiya və İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB, habelə digər beynəlxalq qurumlarda yüksək səviyyədə təmsil olunur. İndiyədək 50-yə yaxın dövlətlə 48 ikitərəfli, 27 dövlətlə çoxtərəfli hökumətlər arası, həm də idarələr arası saziş, memorandum protokolu imzalanmışdır.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün bütün lazımi tədbirlər görülür. Nazirliyin strukturunun və normativ hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, şəxsi heyətin sosial müdafiəsinin və demokratik cəmiyyətdə polisin rolu haqqında məlumatlandırma işləri həyata keçirilir.

Bu gün Azərbaycan Polisi vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir, içdiyi anda və vəzifə borcuna sadiq qalaraq ona inamı və etimadı doğruldur.

Son 20 ilin statistikası görülən işlərin, gecəli-gündüzlü fədakar xidmətin bariz nümunəsidir. Belə ki, ötən dövr ərzində 24 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 22 mindən çox odlu silah yığılıb və onun tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 62 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 20 tona yaxın narkotik vasitə çıxarılıb. Respublikada əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi bir amal və bir əqidə uğrunda ölümün üstünə gedən xalqımızın mərd oğullarının, eləcə də Daxili İşlər Nazirliyinin əməkdaşlarının, hərbi qulluqçularının tarix qarşısında sınağı kimi yadda qaldı. Bu müqəddəs döyüşdə Daxili İşlər Nazirliyinin 66 nəfər hərbi qulluqçusu şəhid oldu, 346 nəfər ağır yaralandı. Hərbi qulluqçulardan 4 nəfəri "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü.

Bu gün 105 yaşını, yubileyini qeyd edən polisimiz qanunlarına, xalqa, Vətənə, ulu öndərin ideallarına və Prezident İlham Əliyevə daim sadiqdir, mübariz keşikdə ayıq-sayıqdır, Azərbaycanın sabitlik adası kimi dünyada tanınmasında bundan sonra da öz töhfələrini verəcəkdir.









# DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏT NÜMUNƏSİ

# AZƏRBAYCAN POLİSİ

Azərbaycan Polisinin yaranmasının 105-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov başda olmaqla Nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Silsilə tədbirlər Daxili İşlər Nazirliyinin Polis Akademiyasında davam edib. Burada nazir general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə "Polis Günü"nə və 2022-2023-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Sonra peşə bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 105 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmləndirilməsi sahəsində gördüyü mühüm işlərdən danışıb.

Həmçinin, dövlət başçısı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyinin fəaliyyətinin və infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən maddi-texniki bazasının və qabaqcıl texnologiyalarla təchizatının müasir dövrün tələblərinə və standartlarına cavab verən səviyyəyə çatdırılması, əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlıqlarının etibarlı təmin olunması üçün davamlı tədbirlərin həyata keçirildiyini, vətəndaşlarımızın da bəhrələndiyi çoxsaylı məlumatlandırma-maarifləndirmə sistemləri istifadəyə verildiyini qeyd edib. Polisin professionallığının yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi istiqamətində sistemli tədbirlərin görülməsinə, o cümlədən bütün peşə tələblərinə cavab verən xüsusi qurumun – Təlim Mərkəzinin yaradılmasına, şəxsi heyətin planlı şəkildə həmin Mərkəzdə və Polis Akademiyasında ixtisasartırma və yenidən hazırlıq kurslarına cəlb olunmasına və minlərlə əməkdaşın başqa ölkələrdə keçirilən treninq və konfranslarda iştirak etməsinə diqqət çəkib.

Nazir xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğunu şəxsi heyətə çatdırıb.

Eyni zamanda bildirib ki, son 20 ildə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən 24 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 22 mindən çox odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 69 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 20 tona yaxın narkotik vasitə çıxarılıb. Eləcə də cinayətkarlıqla mübarizədə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakı, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini vurğulayıb. Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunub.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığını nəzərə çatdıran nazir V.Eyvazov işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış"ın ilk addımlarının atıldığını, belə bir taleyüklü dönəmdə polis orqanlarının və Daxili Qoşunların fəaliyyətinin də mövcud vəziyyətə uyğunlaşdırıldığını, bütövlükdə Qarabağ və Şərqi Zəngəzurda asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyini bildirib.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarının və medianın nümayəndələrinə təşəkkürünü bildirib.

Qazanılan uğurlarda Azərbaycan Polisinin müasir dünyagörüşlü yeni nəslini yetirən Polis Akademiyasının da xüsusi rolunu qeyd edən V.Eyvazov məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini fərqlənmə ilə bitirmiş məzunlara diplomlar və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

General-polkovnik Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

*2 iyul 2023-cü il.*



# DİN-İN DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNDƏ NÖVBƏTİ BURAXILIŞ OLUB

İyunun 23-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2022-2023-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın dövlət himni səsləndirilib.

Nazir müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.









Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olması bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşması üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

Məzunların həyatında yeni bir dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir V.Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaqdır.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

---

# Yeni inzibati binalar istifadəyə verilib





***Polisin xalqa xidmət funksiyalarının icrasını daha səmərəli həyata keçirməsi üçün şəxsi heyətinin professional səviyyəsini yüksəltmək, hər bir əməkdaşa peşə keyfiyyətləri, ekstremal şəraitdə düzgün qərar qəbul etmək bacarığı aşılamaq, gənc əməkdaşların və mütəxəssislərin daxili işlər orqanlarında xidmətə adaptasiyasını təmin etmək daim diqqətdə olan məsələlərdəndir.***

***Nazirliyin yeni inşa edilmiş Təlim-Tədris***



***Mərkəzində məhz qeyd edilən istiqamətlər üzrə ixtisasartırma kursları təşkil ediləcəkdir.***

***Burada, daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi, insan haqlarının müdafiəsi sahəsində qanunvericilikdən və beynəlxalq öhdəliklərdən irəli gələn vəzifələr, ən başlıcası fəaliyyətin, vətəndaş-polis münasibətlərinin inkişafı və bu əsasda məmnunluğun təmin edilməsi kimi mühüm məqsədlər üzərində qurulmasının yolları, forma və metodları tədris olunacaqdır.***

❖❖❖





Müasir dövrün təhdid və çağırışlarının, həmçinin innovasiyaların inkişafının və tətbiqinin sürətlə genişlənməsinə paralel olaraq internet şəbəkələrdən və informasiya texnologiyalarından istifadə edilməklə törədilən hüquqazidd əməllərin dinamikasında da artım müşahidə olunur.

Mövcud vəziyyətdə hər bir şəxsin qanuni mənafeyinin, əmlakının, mülkiyyətinin etibarlı qorunması, kibeməkanda törədilən cinayətlərin, xüsusən narkotiklərin onlayn dövriyyəsinin, dələduzluqların, bank kartlarından pul vəsaitlərini talamaların qarşısının alınması və açılması, həmin əməllərdən zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası polisin başlıca vəzifələri olaraq yerinə yetirilir.

Bu növ cinayətlərə qarşı əks tədbirlərin gücləndirilməsi, sistemli və daha məqsədyönlü aparılması, müvafiq sahədə vətəndaş məmnunluğunun təmin edilməsi üzrə fəaliyyətin beynəlxalq standartlara cavab verən iş şəraitində həyata keçirilməsi məqsədilə Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Mərkəzinin yeni inzibati binası istifadəyə verilib.

❖❖❖




***Vətəndaşlara daha operativ xidmət göstərilməsi, əməkdaşların iş şəraitinin yaxşılaşdırılması məqsədilə yeni tikilib istifadəyə verilən inzibati binalardan biri də Nəsimi Rayon Polis İdarəsinin 20-ci Polis Şöbəsidir.***

***Müasir tələblər səviyyəsində inşa edilmiş bu binada xidmətin səmərəli təşkili üçün bütün lazımi tədbirlər görülüb, şöbə müasir texniki vasitələr və avadanlıqla təmin olunub, ərazidə abadlaşdırma və yaşıllaşdırma işləri aparılıb.***

Həmin binalardan biri nəzəri və praktiki biliklərə yiyələnmiş, intellektual təfəkkürə malik ali hüquq təhsilli polis kadrları hazırlayan, Daxili İşlər Nazirliyinin şəxsi heyətinin müasir dövrün tələblərinə uyğun ixtisasının artırılmasını, ilkin və yenidən hazırlığını təşkil edən Polis Akademiyasında inşa edilib.

Təhsilalanların sosial və məişət şəraitinin müasir tələblər səviyyəsinə yüksəldilməsi məqsədilə qısa zaman ərzində tikilmiş yataqxana zəruri mebel və avadanlıqlarla təchiz edilib.

❖❖❖

# Özləri ilə sevgi gətirmişdilər...



“Dəniz” uşaq bağçasının fidanları 2 iyul Azərbaycan Polisi Günü münasibətilə Xətai Rayon Polis İdarəsinə gəlib asayiş keşikçilərini təbrik ediblər.

Bağçanın kollektivini Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, Bakı şəhər BPİ DYPİ-nin inspektoru, polis kapitanı Pərvanə Muradova və Xətai RPİ-nin inspektoru, polis kapitanı Aygül Uluxanova qarşılayıb.

Dəyirmi masa ətrafında həmkarlarımızla söhbət edən azyaşlı qonaqlar “böyük qardaş və bacı” adlandırdıqları polislərə şeirlər söyləyib, dilləri tutduqları qədər ürək sözlərini çatdırıblar. Kimisi əsgər, kimisi polis, kimisi həkim, kimisi də müəllim olmaq istəyən balacalara həmkarlarımız polisin fəaliyyətindən danışıblar.

Görüşün sonunda onlara təşəkkürnamə təqdim edilib.

Polis İdarəsinə ekskursiyanın uşaqları həm də maarifləndirmək, polisə sevgi hissi formalaşdırmaq məqsədi daşıdığını deyən bağça müdiri Sevda Qənizadə bu görüşün balacalarda silinməz xatirəyə çevriləcəyinə inandığını söyləyib.

Sonra uşaqlar Polis İdarəsində xidməti otaqları gəziblər, onlara polislərin gündəlik işi barədə məlumat verilib, sualları cavablandırılıb.

Balacalarla görüş çay süfrəsi arxasında başa çatıb.

*R.Mehtiyev*













# Təntənəli “Polis Günü”



Azərbaycan Polisinin yaranmasının 105 illiyi münasibətilə təntənəli tədbirlər keçirilib.

Tədbirlərdə Rayon İcra hakimiyyətlərinin başçıları, polis idarə və şöbələrinin rəisləri, hüquq mühafizə orqanlarının rəhbərləri və digər vəzifəli şəxslər iştirak edib.

Əlamətdar günlə bağlı polis əməkdaşları və qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə çiçəklər düzüblər.

Polis idarə və şöbələrində davam etdirilən tədbirlərdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun şəxsi heyətə ünvanlanmış təbrik məktubu oxunub.

Çıxış edənlər Azərbaycan Polisinin 105 illik çətin və məsuliyyətli fəaliyyəti barədə geniş məlumatlar verərək, polisin keçdiyi şanlı tarixi yola nəzər salıblar. Qeyd olunub ki, Azərbaycan Polisi yarandığı gündən ictimai asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin, əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələrin öhdəsindən layiqincə gəlib. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində daxili işlər orqanlarının peşəkarlığının daha da artırılması, maddi-texniki bazasının beynəlxalq standartlar səviyyəsində formalaşması və polis işçilərinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində böyük nailiyyətlər əldə edildiyi vurğulanıb. Vətən müharibəsində polis əməkdaşlarının arxa cəbhədə fədakar xidmətinə və Daxili Qoşun hərbçilərinin isə ön cəbhədəki qəhrəmanlığına xüsusilə diqqət çəkilib.

Tədbirlərin sonunda xidmətdə fərqlənən polis əməkdaşlarına fəxri fərmanlar və mükafatlar təqdim olunub.

*"Polis"*

# “QAN VER, YAŞAT!” aksiyasına qoşuldular







Xeyirxahlıq çağırışına qoşulan daxili işlər orqanlarının əməkdaşları davamlı olaraq qanvermə aksiyalarında iştirak edirlər. Elə bu günlərdə qan donorluğunun təşkilatçılığında fəal iştirakına və verdiyi dəstəyə görə Baş Dövlət Yol Polisi İdarəsinə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı tərəfindən təşəkkür təqdim edilib.

**“Talasemiyyasız həyat naminə” proqramı çərçivəsində isə Nizami, Nəsimi, Xəzər, Suraxanı və Nərimanov Rayon Polis idarələrində qanvermə aksiyaları keçirilib.**

Hemotologiya və Transfuziologiya İnstitutu nəzdində fəaliyyət göstərən Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş tibb briqadasının həkim-hemotoloqları əməkdaşların sağlamlıq durumunu qiymətləndirdikdən sonra onların aksiyada iştirak etmələrinə icazə verilib.

Qeyd edək ki, Sabunçu, Pirallahi, Xətai, Yasamal, Qaradağ, Binəqədi, Səbail Rayon Polis idarələrində və Metropolitendə Polis İdarəsində də qanvermə aksiyasının keçirilməsi nəzərdə tutulub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Silah-sursat aşkar edilib



Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşlarının rayon ərazisində keçirdiyi tədbirlər zamanı tərk edilmiş mövqelərdən erməni hərbi qüvvələrinə məxsus silah-sursat aşkar edilib.

Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, polis əməkdaşları 3 avtomat, 1 qumbaraatan, 1 tapança, 882 ədəd müxtəlif çaplı patronlar və digər sursatları götürərək aidiyyəti üzrə təhvil veriblər.

# İDMAN XRONİKASI

## Komandamız birinci oldu



Bu günlərdə Azərbaycan Kikboksinq Federasiyasının "Xəzər" Kikboksinq İdman Klubunun 3-cü açıq çempionatı keçirilib.

25 komandadan 350 idmançının iştirak etdiyi bu yarışda Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin Kikboksinq bölməsi 59 medal qazanaraq komanda hesabında 1-ci yerə layiq görülüb. Komanda 30 qızıl, 13 gümüş, 16 bürünc medal əldə edib.

**İdmançıları bu yarışa kikboksinq üzrə yeniyetmə və gənclərin yığma komandasının baş məşqçisi, DİN Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev hazırlayıb.** H.Hacıyev “Polis”ə bildirib ki, bu gün idmançılarımızın ölkə və beynəlxalq miqyasda yarışlarda iştirak və uğur əldə etmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Gənclərimizin ölkəmizi dünya arenalarında təmsil etmələrinə DİN-in İdman Cəmiyyəti də öz töhfələrini verir ki, bu da qazanılan qələbələrin və medalların sayında özünü göstərir.

H.Hacıyev gənclərin vətənpərvər ruhda böyüməsində, onların zərərli vərdişlərdən qorunması istiqamətində DİN rəhbərliyi tərəfindən atılan addımları yüksək qiymətləndirir və göstərilən etimada layiq olmaq üçün güclərini bundan sonra da səfərbər edəcəklərini vurğulayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

## Özünümüdafiə bacarıqları təkmilləşdirilir





**Zərdab Rayon Polis Şöbəsinin və Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibəti ilə rayonun 1 nömrəli məktəb-liseyində polis əməkdaşları arasında silahsız özünü müdafiə üzrə çempionat keçirilib.**

Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Çıxış edən qonaqlar müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin şərəfli ömür yolu və dövlətimizin tərəqqisi naminə gördüyü işlər barədə geniş məlumat verib, yarış iştirakçılarına uğurlar arzulayıblar. Özünümüdafiə və əlbəyaxa döyüş növləri olmaqla 2 mərhələdə keçirilən çempionatda qalib gələn polis əməkdaşları medal, diplom və xatirə hədiyyələri ilə təltif ediliblər.

**Analoji yarış Şirvan Rayon Polis Şöbəsinin şəxsi heyəti arasında da keçirilib.**

İkimərhələli turnirdə ilk 57 idmançı silahsız özünümüdafiə bacarıqları ilə sınağa çəkilib. Onlardan 14-ü ikinci tura vəsiqə qazanıb.

**Ən güclülərin mübarizəsində 5 çəki kateqoriyası üzrə qaliblərə İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Aydın Həşimov medal, diplom və qiymətli hədiyyələri təqdim edib.**

*Ə.Teymur,*
*H.Nizam*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9655
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik